# Ulu öndərin 100 illiyi münasibətilə Buenos-Ayresdə konsert






**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi və Azərbaycanla Argentina arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü Argentinada qeyd olunub.**

Bu münasibətlə paytaxt Buenos–Ayres şəhərində konsert təşkil edilib. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dəstəyi ilə keçirilmiş tədbirdə Argentinanın dövlət və hökumət nümayəndələri, ictimai-siyasi xadimləri, bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbər və əməkdaşları, kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.

Azərbaycanın Argentinadakı səfiri Rəmzi Teymurov tədbirdə çıxış edərək müasir Azərbaycanın banisi Heydər Əliyevin həyatı və dövlətçilik ənənələrimizin formalaşdırılmasında əvəzsiz rolu barədə danışıb.

Daha sonra Azərbaycan–Argentina münasibətləri haqqında danışan R. Teymurov ölkələrimiz arasında dostluq əlaqələrindən və bu münasibətlərin siyasi, iqtisadi, mədəni və sair sahələrdə genişləndirilməsi üçün mövcud imkanlardan bəhs edib.

Sonra piano ifaçısı Səadət İsmayılovanın müşayiəti ilə Azərbay-ɑ n Dövlət Akademik Opera və Balet Teatrının direktoru, dramatik tenor, Azərbaycanın Xalq artisti Yusif Eyvazovun və Əməkdar artist Səbinə Əsədovanın ifalarında Azərbaycan bəstəkarlarının əsərləri yüksək məharətlə səslənib. Həmçinin Rəşad İbrahimov, Mirəli Seyidzadə və Təbriz Yusubovun ifalarında Azərbaycan milli musiqiləri təqdim edilib.

Azərbaycan musiqi xadimlərinin ifaları tədbirə dəvət olunmuş qonaqlar tərəfindən böyük məmnuniyyətlə qarşılanıb.

Tədbir Argentinanın kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 25 avqust.- S.5.